*“Metafizika” Journal* | *AcademyGate Publishing*
*Vol 8, issue 8, serial 36, 2025. pp.139-151* | *p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UDC:** 31.
**LBC:** 60.52.; 60.54
**MJ №** 397
10.33864/2617-751X.2025.v8.i8.139-151

# AZERBAIJAN IN THE CONTEXT OF THE MODERN INFORMATION WAR IN THE U.S. POLICY TOWARD THE SOUTH CAUCASUS

**Fatima Abdullayeva***

**Abstract.** Within the categories of time and space, the South Caucasus has always been and remains an arena of constant struggle among the world powers. Its geopolitical and geoeconomic significance, rich resources, and location along the Great Silk Road are the key factors shaping this competition. In the modern era, the path toward turning the region into a sphere of influence for any global power lies through the relations established with the states of the region. In this sense, Azerbaijan, Georgia, and Armenia are of strategic importance not only for the United States and Russia but also for Iran, Turkey, and the countries of the European Union, being part of the configuration of geopolitical and military rivalry for the region. Therefore, the Republic of Azerbaijan, as the leading state in the region, stands at the center of this struggle. The article analyzes the essence and content of Azerbaijan’s policy within the framework of the U.S. strategy toward the South Caucasus and in the context of the information war, examining both contradictory and objective issues.

**Keywords:** South Caucasus, Azerbaijan, Turkey, USA, Russia, information warfare, 44-day Patriotic War, geopolitics, priorities, Nagorno-Karabakh conflict, double standards

---

* Baku State University, Doctoral student in the Department of International Relations; Baku, Azerbaijan
E-mail: mammadzade91@gmail.com
https://orcid.org/0000-0003-3325-3947

**To cite this article:** Abdullayeva, F. [2025]. AZERBAIJAN IN THE CONTEXT OF THE MODERN INFORMATION WAR IN THE U.S. POLICY TOWARD THE SOUTH CAUCASUS. *“Metafizika” journal, 8*(8), pp.139-151.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.139-151

***Article history:***
*Received: 28.09.2025*
*Accepted: 25.10.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 31.
**ББК:** 60.52.; 60.54
**MJ №** 397
10.33864/2617-751X.2025.v8.i8.139-151

# АЗЕРБАЙДЖАН В УСЛОВИЯХ СОВРЕМЕННОЙ ИНФОРМАЦИОННОЙ ВОЙНЫ В ПОЛИТИКЕ США В ОТНОШЕНИИ ЮЖНОГО КАВКАЗА

**Фатима Абдуллаева***

**Абстракт.** Южный Кавказ в рамках категорий времени и пространства всегда был и остается ареной постоянной борьбы мировых держав. Его геополитическое и геоэкономическое значение, богатые ресурсы и расположение на Великом шелковом пути являются факторами, определяющими эту борьбу. В современную эпоху путь к превращению региона в сферу влияния любой глобальной силы проходит через отношения, выстраиваемые с государствами региона. В этом смысле Азербайджан, Грузия и Армения имеют стратегическое значение не только для США и России, но также для Ирана, Турции и стран Европейского союза, входя в конфигурацию геополитической и военной борьбы за регион. Именно поэтому Азербайджанская Республика, являющаяся ведущим государством региона, находится в центре такой борьбы. В статье анализируются сущность и содержание политики Азербайджана в контексте стратегии США в отношении Южного Кавказа и информационной войны, а также рассматриваются противоречивые и объективные проблемы.

**Ключевые слова:** Южный Кавказ, Азербайджан, Турция, США, Россия, информационная война, 44-дневная Отечественная война, геополитика, приоритеты, нагорно-карабахский конфликт, двойные стандарты

---

* Бакинский государственный университет, Диссертант Кафедры международных отношений; Баку, Азербайджан
E-mail: mammadzade91@gmail.com
https://orcid.org/0000-0003-3325-3947

**Цитировать статью:** Абдуллаева, Ф. [2025]. АЗЕРБАЙДЖАН В УСЛОВИЯХ СОВРЕМЕННОЙ ИНФОРМАЦИОННОЙ ВОЙНЫ В ПОЛИТИКЕ США В ОТНОШЕНИИ ЮЖНОГО КАВКАЗА. *Журнал «Metafizika»*, *8*(8), с.139-151.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.139-151

***История статьи:***
*Статья поступила в редакцию: 28.09.2025*
*Отправлена на доработку: 25.10.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**UOT:** 31.
**KBT:** 60.52.; 60.54
**MJ №** 397
10.33864/2617-751X.2025.v8.i8.139-151

# MÜASİR İNFORMASİYA MÜHARİBƏSİ ŞƏRAİTİNDƏ AZƏRBAYCAN ABŞ-NİN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ

**Fatimə Abdullayeva***

**Abstrakt.** Cənubi Qafqaz zaman və məkan kateqoriyaları daxılında həmişə dünya güclərinin daimi mübarizə meydanı olmuş və olmaqdadır. Onun geosiyasi və geoiqtisadi əhəmiyyəti, zəngin sərvətləri və Böyük İpək Yolunun üzərində yerləşməsi bu mübarizəni şərtləndirən amillərdir. Müasir dövrdə regionun hər hansı qlobal gücün nüfuz dairəsinə çevrilməsinin yolu bu regionun dövlətləri ilə qurulan münasibətlərdən keçir. Bu mənada Azərbaycan, Gürcüstan və Ermənistan təkcə ABŞ və Rusiya üçün deyil, habelə İran, Türkiyə və Avropa İttifaqı dövlətləri üçün strateji əhəmiyyətə malikdir və bu region uğrunda gedən geosiyasi/hərbi mübarizənin konfiqurasiyasına daxildir. Məhz buna görə də regionun aparıcı dövləti olan Azərbaycan Respublikası belə mübarizənin mərkəzindədir. Məqalədə qlobal güc olan ABŞ-ın Cənubi Qafqaz strategiyası və informasiya mübarizəsi kontekstində Azərbaycan siyasətinin mahiyyət və məzmunu təhlil edilir, ziddiyyətli və obyektiv problemlər araşdırılır.

**Açar sözlər:** Cənubi Qafqaz, Azərbaycan, Türkiyə, ABŞ, Rusiya, informasiya müharibəsi, 44 günlük Vətən müharibəsi, geosiyasət, prioritetlər, Dağlıq Qarabağ münaqişəsi, ikili standartlar

* Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər kafedrasının dissertantı; Bakı, Azərbaycan
E-mail: mammadzade91@gmail.com
https://orcid.org/0000-0003-3325-3947

**Məqaləyə istinad:** Abdullayeva, F. [2025]. MÜASİR İNFORMASİYA MÜHARİBƏSİ ŞƏRAİTİNDƏ AZƏRBAYCAN ABŞ-NİN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ. *“Metafizika” jurnalı, 8*(8), səh.139-151.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.139-151

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 28.09.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 25.10.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Sovet İttifaqının dağılmasından sonra Cənubi Qafqaz dünya güclərinin maraqlarının toqquşduğu postsovet məkanının əsas regionlarından birinə çevrildi. ABŞ, Rusiya, İran və Türkiyə arasında gedən geosiyasi mübarizə vəziyyəti daha da gərginləşdirərək regionu siyasi və informasiya qarşıdurmasının arenasına çevirdi.

Bu şəraitdə ABŞ-ın təsiri xüsusilə gücləndi. Amerika Birləşmiş Ştatları demokratiya, insan hüquqları və iqtisadi əməkdaşlıq bəhanəsi ilə regionda öz mövcudluğunu möhkəmləndirməyə çalışdı. Lakin ABŞ siyasətinin əsl məqsədi Rusiyanı və İranı regiondan sıxışdırmaq, həmçinin Xəzər- Qafqaz məkanındakı enerji və nəqliyyat resurslarına nəzarəti ələ almaq idi.

Regionun aparıcı dövləti kimi Azərbaycan üçün bu siyasət informasiya sahəsində təzyiqlərin artmasına və Qərbin, xüsusilə də ölkənin ərazi bütövlüyü məsələsində, ikili standartlar nümayiş etdirməsinə səbəb oldu. Məqalədə ABŞ-ın Cənubi Qafqazdakı strateji prioritetləri, bu siyasətin SSRİ-nin dağılmasından indiyədək keçdiyi mərhələlər və onun Azərbaycanın təhlükəsizliyinə və beynəlxalq imicinə təsiri təhlil olunur.

## 2.ABŞ-ın Cənubi Qafqaz siyasətində informasiya komponenti

Postsovet məkanının mühüm bölgələrindən Cənubi Qafqazın sürətlə geosiyasi mübarizə və informasiya müharibəsi orbitinə daxil olması sovetlər birliyinin dağılması ilə bağlı idi. Təsadüfi deyildi ki region tezliklə konflikt və qarşıdurmaların baş verdiyi məkana çevrildi. Yaranmış şəraitdə Qərb dövlətlərinin, o cümlədən də ABŞ-ın Cənubi Qafqaz istiqamətində fəallaşması regionda geosiyasi situasiyanın kəskinləşməsini şərtləndirmişdi. Belə ki, tarixən Rusiya, Türkiyə və İran arasında nüfuz dairələri uğrunda mübarizənin getdiyi Cənubi Qafqaz qlobal güclərin mübarizə meydanına çevrilmişdi. “Soyuq müharibə”nin başa çatmasından sonra yaranmış geosiyasi şəraitdə Qərbin, ilk növbədə ABŞ-ın Cənubi Qafqaz siyasəti onun iki böyük dövlətə - Rusiya və İrana qarşı rəqabət məkanına çevrilməsinə gətirib çıxarmış, mübarizə xüsusilə Xəzər-Mərkəzi Asiya regionunun enerji ehtiyatlarına çıxışla bağlı kəskinləşmişdi. Belə olan halda ABŞ üçün region ölkələrinin milli maraqları arxa planda qalmışdı. Zaman-zaman regionda baş verənlər, Gürcüstana olan etimadın itməsi və digər proseslər ABŞ-ın Cənubi Qafqaz siyasətində müəyyən dövr üçün qeyri-müəyyənliyin başlıca səbəbi idi. Məhz buna görə də tarix boyu həmişə maşa kimi istifadə olunan Ermənistan və onun Türkiyə ilə sərhədləri məsələsi ABŞ üçün prioritetə çevrilməyə başlamışdı.

Dünyanın mühüm beyin mərkəzlərindən Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin (ABŞ) hazırladığı “ABŞ-İran strateji rəqabəti: Türkiyə və Cənubi Qafqaz” hesabatda region uğrunda mübarizədə qlobal güclərin qarşıdurmaya meyilli olmasının risk amilini yüksəltməsi xüsusi olaraq qeyd edilmiş və Ermənistandan bu məqsədlə istifadə oluna biləcəyi yer almışdı [Xalq qəzeti,

2021]. Belə vəziyyətdə İrəvandakı çoxsaylı amerikan missiyası Ermənistanın ABŞ siyasətində əhəmiyyətinin göstəricisidir. Bu müstəqil xarici siyasət yürütmək istəyən Cənubi Qafqaz dövlətlərinin ABŞ-ın region prioritetləri ilə uzlaşa bilməyəcəyini göstərir. Cənubi Qafqazın lider dövləti olan Azərbaycan isə beynəlxalq aləmdə milli maraqlara əsaslanan müstəqil xarici siyasət həyata keçirən ölkə kimi tanındığına görə, ağırlıq mərkəzinin informasiya müharibəsinin üzərinə keçməsi təsadüfi deyildir.

## 3.İnformasiya müharibəsində Azərbaycanın strateji mövqeyi

Şərqlə Qərbin, Şimalla Cənubun, İslamla xristianlığın qovşağında yerləşən Azərbaycan bütün tarixi mərhələlərdə geosiyasi mübarizənin diqqət mərkəzində olmuşdur. Azərbaycan müxtəlif dinlərin və mədəniyyətlərin təmsilçilərinin birgə yaşadığı ölkədir. Bir müsəlman ölkəsi olan Azərbaycanda xristianlar da, yəhudilər də heç bir problem olmadan uzun əsrlərdir yaşayırlar. Müstəqilliyimizin ilk illərindən ölkəmiz Qərb dövlətləri və şirkətləri ilə sıx əməkdaşlıq edir. Qərb ölkələri Azərbaycanın əsas ticarət tərəfdaşlarıdır, ölkəmizdə əsas investorlar Qərb şirkətləridir. Azərbaycanın əsas ixrac marşrutları olan neft və qaz boru kəmərləri Avropaya doğru istiqamətlənmişdir.

Azərbaycan antiterror çağırışlarına qoşulan ilk ölkələrdən biri olmuşdur. Azərbaycan hərbçiləri Balkanlarda, Əfqanıstanda və İraqda NATO komandanlığında xidmət etmişlər. NATO-nun Əfqanıstanda antiterror əməliyatını həyata keçirdiyi dövrdə Azərbaycan özünün hava məkanını açmış, yalnız NATO qoşunları 2020-ci ildə Əfqanıstandan çıxarıldığı zaman sülhməramlı qüvvələrimiz bu ölkəni tərk etmişdi [Məmmədov, Ayna qəzeti, 1992]. Bununla belə, Azərbaycanın Qərblə fəal əməkdaşlığına baxmayaraq, heç də həmişə həm ABŞ, həm də Avropa ölkələrindən Azərbaycanın tərəfdaşlıq səylərinə adekvat addımlar atılmır. Bu, Azərbaycanın əsas problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yanaşmada özünü daha dolğun göstərmişdi. Qərb ölkələri Azərbaycanın ərazi bütövlüyünü dəstəkləsələr də, bununla bağlı konkret addımlar atmamışdılar.

BMT TŞ-nin məlum qətnamələrində erməni qoşunlarının Azərbaycan ərazilərindən qeyd-şərtsiz dərhal çıxarılması tələb olunsa da, dünya birliyi, xüsusilə Qərb dövlətləri öz qəti mövqeyini ortaya qoymadığı üçün heç bir qətnamənin tələbləri yerinə yetirilməmiş, əvəzində İrəvanın anti-Azərbaycan informasiya kompaniyası dəstəklənmişdi. Halbuki, Ukrayna-Rusiya münaqişəsində Qərb ölkələri Kiyevin yanında yer almışdılar. Yəni, beynəlxalq hüquq yalnız böyük güclərin maraqlarına lazım olduqda tətbiq mexanizmini işə salır, xüsusilə hərbi və informasiya dəstəyini əsirgəmirdi. Bütün bunlar isə dünyada ədalətli yanaşmaya olan inamı azaldır, beynəlxalq səviyyədə özünü göstərən ikili standartlar dünyada ədalət böhranının yaranmasını şərtləndirirdi.

Qərbin Cənubi Qafqaz, habelə region diplomatiyasının əsas aktorları müxtəlif informasiya kanalları, qeyri-hökumət təşkilatları, araşdırma mərkəzləri və casus şəbəkələridir. Belə ki, ABŞ Ankara və İrəvandakı səfirlikləri vasitəsilə QHT-lər arası əməkdaşlığı dəstəkləmək üçün 2010-cu ildən etibarən 4,7 milyon dollar vəsait xərcləmişdi. Vaşinqton türk və erməni QHT-lərə İrəvandakı səfirliyi vasitəsilə 2,4 milyon dollar, Ankara səfirliyi vasitəsilə isə 2,3 milyon dollar həcmində qrantlar ayırmışdı. ABŞ Konqresinin Dağlıq Qarabağdakı separatçı rejimə hər il maliyyə yardımları ayırması, USAİD-in Dağlıq Qarabağda müxtəlif layihələr həyata keçirməsi humanitar məqsədlərin reallaşmasından daha çox separatçı rejimin iqtisadi cəhətdən güclənməsinə imkan yaradırdı [Respublika qəzeti, 2015]. Seperatçı rejimi dəstəkləyən aktorlar kütləvi informasiya vasitələrində törətdikləri cinayərləri Azərbaycanın adına bağlayaraq ölkəmizin beynəlxalq imicinə zərbə vururdular.

**4.Azərbaycan haqqında formalaşdırılan informasiya narrativləri**

ABŞ Konqresinin Azərbaycana münasibətdə qəbul etdiyi "Azadlığa Dəstək Aktı"na 907-ci düzəliş uzun müddət ölkəmizə amerikan yardımları və iş adamlarrının yolunu bağlamışdı. Vaşinqtonun Azərbaycana belə münasibət bəslədiyi dövrdə ABŞ-ın rəsmi dairələri ilə yanaşı beynəlxalq müstəvidə qeyri-rəsmi oyunçuları da Türkiyə-Ermənistan münasibətlərinin yaxınlaşması və sərhədlərin açılmasını fəal şəkildə təbliğ edirdilər. Bu məsələdə Soros Fondu xüsusi canfəşanlıq edirdi.

Tədqiqat prosesinə cəlb edilmiş sənəd, material və informasiya kanallarının məlumatlarının təhlili göstərir ki, ABŞ-ın Cənubi Qafqaz siyasətində onun NATO bloku üzrə müttəfiqi Türkiyənin mövqeyi xüsusi əhəmiyyətə malikdir, halbuki, Vaşinqton Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsini arxa plana keçirərək başlıca diqqəti Türkiyə-Ermənistan sərhədlərinin açılmasına yönəltmişdi. Bununla ABŞ-ın nə qazanacağı və ya Cənubi Qafqazda geosiyasi mənzərənin necə dəyişəcəyi aydın deyildi, hadisələrin sonrakı gedişi bunun avantürisst plan olduğunu aşkara çıxardı. ABŞ bu istiqamətdə fəaliyyəti onu da göstərdi ki, region siyasətində əsas müttəfiqləri ilə münasibətləri də nəzərə almaya bilirdi. Məlum olduğu kimi, Ankara təkcə müttəfiq deyil, həm də ABŞ üçün Cənubi Qafqaz və Mərkəzi Asiyaya açılan enerji və nəqliyyat qovşağı kimi geosiyasi əhəmiyyətə malikdir və bu mövqe qlobal rəqabətdə ABŞ üçün olduqca vacibdir.

ABŞ-da bilməmiş deyildilər ki, Türkiyə-Ermənistan sərhədləri 1993-cü ildə Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğal edilməsi ilə əlaqədar bağlanmışdı. Azərbaycan öz torpaqlarını işğaldan azad etmək uğrunda mübarizə apardığı halda, Ermənistan üçüncü bir ölkənin forpostu olaraq bu geosiyasi oyunlardan uduşlu çıxmaq istəyirdi. Son 30 il ərzində ABŞ-ın Cənubi Qafqazda prioritetlərinin dəfələrlə dəyişdiyinin şahidi

olmuşuq, ümumiyyətlə isə Vaşinqtonun region və region ölkələri siyasətinin prioritetləri geosiyasi şəraitə uyğun olaraq dəyişməkdədir [Həbibbəyli, Yeni Azərbaycan qəzeti, 2014]. Bu özünü 44 günlük Vətən müharibəsi və sonrakı hadisələrə münasibətdə aydın şəkildə göstərdi. Belə ki, Vaşinqton rəsmiləri Azərbaycanın doqquz ay boyunca “Laçın dəhlizini blok edərək” Qarabağ sakinlərini ərzaq, dərman, yanacaq və kommersiya təchizatları ilə birləşdirən mühüm yolu bağladığını və bunun ciddi qıtlıq yaratdığını bildirirdilər.

ABŞ rəsmisi Pauer isə Vətən müharibəsindən sonra Cənubi Qafqazda davam edən böhranın təsirinə məruz qalan icmaları dəstəkləmək üçün 11.5 mln dollarlıq humanitar yardım ayrıldığını bildirmişdi ki, bunun seperatçıların yerdə qalanlarına ayrıldığı məlum idi. O, Ağ evin 2020-ci ildən Qarabağdakı vəziyyətlə əlaqədar daha 23 mln dollar humanitar yardım verdiyini bəyan edərək bildirmişdi ki, “bu vəsaitdən zorakılıq və kütləvi köçkünlük nəticəsində yaranan travmanın aradan qaldırılmasına kömək etmək üçün qidadan tutmuş psixososial dəstəyə qədər hər şeyi təmin etmək üçün" istifadə olunacagını qeyd etmişdi [2].

Azərbaycanlı müəlliflərdən olan Y.Bağırzadə "News Center.az"-da yer alan yazısında ABŞ-ın beynəlxalq aləmdə oynadığı siyasi oyunların tək məqsədinin Vaşinqtonun hər hansı regionda geosiyasi maraqlarını təmin etmək, həmin ərazinin sərvətlərini nəzarətə götürməkdən ibarət olduğunu xüsusi olaraq qeyd edirdi. Deməli, ABŞ-ı nə demokratiya, nə insan haqları, nə də sülh və sabitlik maraqlandırmırdı. Hazırda Cənubi Amerika, Afrikavə Avroasiyanın böyük bir hissəsi Vaşinqtonun siyasi oyunları üçün poliqona çevrilmişdir, desək səhv etmərik. Görünən odur ki, ABŞ indi də özü üçün Cənubi Qafqazda yeni poliqon yaratmaq niyyətindədir. Məqsəd guya ki, Rusiyanı regiondan sıxışdırıb çıxarmaqdır, əslində isə hədəf regionu qarışdırmaqdır [3].

ABŞ-ın Cənubi Qafqaz siyasətində Rusiyanı neytrallaşdırmaq mühüm əhəmiyyət kəsb edirdi. Təsadüfi deyildi ki, məhz bunun üçün Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanması, bununla da Azərbaycan ərazilərində müvəqqəti yerləşmiş Rusiya sülhməramlılarının regiondan çıxarılması reallaşdırılmalı idi. Yalnız bundan sonra Ermənistan ərazisindəki 102-ci hərbi bazanın çıxarılması mümkün ola bilərdi. Bununla belə, Qərbdə "Tramp dəhlizi" adlandırılan Zəngəzur dəhlizinə Rusiyanın biganə qalmayacağı təhlükəsi regionun gələcəyinə elə də nikbin baxmağa imkan vermir. Təsadüfi deyil ki, Ağ evin məqsədi Rusiya - Ermənistan qarşıdurması yaratmaq üçün Ermənistanı bütün platformalarda dəstəkləməklə, Azərbaycan əleyhinə bəyanatlar qəbul etməklə regionda Rusiyaya qarşı ikinci cəbhənin açılmasına nail olmaq və Ukrayna cəbhəsində Avropanın vəziyyətini yüngülləşdirməyə nail olmaq hədəflənmişdir.

Vaşinqton ATƏT-in Minsk Qrupunun həmsədri kimi də onilliklər boyunca münaqişənin dondurulmuş vəziyyətdə qalması üçün əlindən gələni etmişdi.

Dağlıq Qarabağdakı seperatçı rejimə hər il humanitar yardımlar adı altında milyonlarla dollar yardımlar edilirdi. Separatçılar ABŞ-a səfər edərək "Qarabağa yardım" adı altında vəsait toplayır və bu məqsədlə onların ABŞ-da ofisi yaradılırdı. Seperatçıların nümayəndələri Amerikaya səfər edərək ayrı-ayrı səviyyələrdə görüşlər keçirir, Azərbaycana qarşı bəyanatlar verilir, enerji layihələrinin həyata keçirilməsinə əngəllər törədilirdi. ABŞ sözdə Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə etsə də, arxada Ermənistan və Dağlıq Qarabağdakı separatçı rejim ciddi şəkildə dəstəklənirdi ki, bütün bunlara 44 günlük Vətən müharibəsi nəticəsində son verilmişdi.

Doğrudur, C.Baydenin prezidentliyi dövründə ABŞ-ın Dövlət katibi A.Blinkenin vasitəçiliyi ilə aparılan danışıqlarda Ağ ev tədricən münaqişəyə münasibətdə rasional yanaşma sərgiləməyə çalışmış və Azərbaycanın ədalətli sülh üçün irəli sürdüyü tezişlərin əksəriyyətini qəbul etmişdi. Bununla belə, ABŞ Dövlət Departamentinin köməkçisi Y.Kimnin "Dağlıq Qarabağ xalqının hüquqları" terminindən istifadə etməsi və senatdakı dinləmələr zamanı amerikalı siyasətçilərin Qarabağdakı erməni rezidentlərinin hüquq və təhlükəsizliyi ilə bağlı Azərbaycan hökumətini ittiham etməsi Ağ evin sonadək səmimi olmadığını göstərirdi [Respublika qəzeti, 2015].

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri E.Şahinoğlu 2021-ci ilin noyabrında Modern.az-a müsahibəsində bildirmişdi ki, hazırda ABŞ-ın Cənubi Qafqazda mövcudluğu aşağı səviyyədədir və buna görə də İrəvan hədəfə götürülmüşdür. Üç ölkənin səfirinin İrəvanda toplanması əvvəllər Tbilisidə keçirilsə də, toplantı yerinin dəyişməsi Amerikanın Ermənistana da böyük maraqlarının olduğunun göstəricisidir. Keçmiş Sovet məkanında Amerikanın ən böyük səfirliyi elə İrəvanda olmuşdu. Belə vəziyyət Rusiyada da müəyyən narahatlıqlar doğurur, çünki Ermənistan Rusiyadan asılı bir dövlətdir. Cənubi Qafqazda əsas oyunçular Türkiyə və Rusiyadır. Ağ evin birtərəfli şəkildə Ermənistanla əməkdaşlığı Azərbaycan tərəfindən qəbul edilməyəcək. Müəllif "ona görə də vacib olan İrəvandakı görüşdən sonra verilən açıqlamadır və biz ABŞ-ın Azərbaycandakı səfirindən də münasibət gözləyirik " - demişdi [4].

Problemə analoji münasibət bəsləyən Milli Məclisin deputatı N.Aslanov yerli kanallara verdiyi müsahibələrinin birində ABŞ-ın Cənubi Qafqazda keçən əsrin 90-cı illərində Şərqi Avropada, bir qədər sonra isə Yaxın Şərqdə həyata keçirdiyi siyasəti tətbiq etdiyini qeyd edərək bildirmişdi ki, Cənubi Qafqazın zəngin təbii ehtiyatları, eləcə də region ölkələrinin malik olduqları əlverişli geostrateji mövqeləri hər zaman Qərb dövlətlərinin diqqətini cəlb edirdi, lakin SSRİ dönəmində Rusiya bu regionda hakim mövqelərə malik idi və bu vəziyyət Qərbin bölgəyə hər hansı müdaxiləsini birmənalı olaraq istisna edirdi. 1990-cı ildən sonra keçmiş İttifaq respublikalarının öz müstəqilliklərini elan etmələri ilə Rusiyanın Cənubi Qafqazda mövqeləri də sürətlə zəifləməyə başladı [11]. Müəllifə görə, Azərbayacna qarşı açıq-aşkar düşmənçilik

münasibətləri sərgiləyən Fransadan fərqli olaraq ABŞ hələ də Qarabağ ətrafında gedən proseslərə müdaxilə cəhdlərini ikili standartlar siyasəti ilə aparır. Buna baxmayaraq, bölgəyə təsir edəcək iki ölkə - Rusiya və Türkiyə mövcuddur, Vaşinqtonla münasibətlərində gərginlikləri olan Moskva və Ankara Amerikanın Cənubi Qafqazda mövqelərinin möhkəmlənməsinə imkan verməyəcəklər [13].

**5.Milli informasiya siyasətinin gücləndirilməsi istiqamətləri**

Sovetlər birliyinin dağılmasından sonra Qərb ölkələri, eləcə də ABŞ yaranmış vəziyyətdən bəhrələnmək istəyirdilər. Cənubi Qafqazın ən böyük dövləti olan Azərbaycanın 1991-1992-ci illərdə keçmiş Yuqoslaviya misalında parçalanmasına və ölkəmizin ərazisində bir neçə xırda marionet dövlətin yaradılmasına hesablanmış planları da məhz ABŞ, Fransa və bəzi digər Qərb dövlətlərinə məxsus idi. Lakin Ümummilli lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıtması bu planları alt-üst etdi. Azərbaycanın qısa zamanda keçdiyi inkişaf yolu Cənubi Qafqazın heç də asan hədəf olmayacağını bütün dünyaya göstərdi. Bundan sonra xarici siyasətinin əsasında riyakarlığın, xəyanətin və satqınlığın durduğu Qərb dövlətləri öz məqsədlərinə nail olmaq üçün Ermənistan kartını ortaya atdılar. Məhz bunun nəticəsində ABŞ və Fransa Azərbaycan torpaqlarının işğalına son qoymaq üçün heç bir real addım atmadılar [Эйвазов, 2004, s.237].

Yaranmış şərait Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə nizamlanmasını mümkünsüz etdi. Məhz bundan sonra arxasında Türkiyə, Pakistan, İsrail və bəzi müsəlman ölkələri olan Azərbaycan 2020-ci ilin 27 sentyabr - 9 noyabr hərbi əməliyyatları nəticəsində Dağlıq Qarabağ və Ermənistanın işğalı altında olan Azərbaycan torpaaqları üzərində nəzarəti bərpa etdi. Müharibə zamanı və ondan sonra Bakıya güclü dəstək verərən Türkiyə ilə strateji əməkdaşlıq daha da dərinləşdi. Digər tərəfdən, Rusiya, KTMT çərçivəsində Ermənistanın formal müttəfiqi olmasına baxmayaraq, hadisələrə birbaşa müdaxilə etmədi. Bu dəyişikliklər regiondakı mövcud tarazlıqları pozdu və Cənubi Qafqaz ölkələrini xarici siyasətlərinə yenidən baxmağı zərurətə çevirdi [6]. Cənubi Qafqazda yaranmış yeni şərait Qərb dövlətlərini, o cümlədən də ABŞ-ı region siyasətinə yenidən baxmağa və ciddi düzəlişlər etməyə vadar etdi.

Müasir dövrdə Azərbaycan, Gürcüstan və Ermənistanda siyasi dairələri düşündürən başlıca məsələ yeni ABŞ Administrasiyasının Cənubi Qafqaz siyasətinin necə qurulacağıdır. Avropanın yeni təhlükəsizlik arxitekturasının gələcəyi və onun Cənubi Qafqaz regionuna təsiri də gündəmdə olan aktual məsələlərdənddir. Azərbaycan Prezidenti İ.Əliyev regionda yaranmış yeni geosiyasi situasiya ilə bağlı yerli telekanallara müsahibəsində qeyd etmişdi ki, Bayden administrasiyasının Azərbaycanla bağlı əsas səhvi ondan ibarət idi ki, o, Amerika- Azərbaycan münasibətlərini Amerika- Ermənistan

münasibətlərinin qurbanına çevirmişdi, yəni Azərbaycana Ermənistan-Azərbaycan, ya da ki, Amerika- Ermənistan münasibətlərinin prizmasından yanaşırdı. Digər tərəfdən, "Azərbaycana qarşı ədalətsiz mövqe sərgiləmişdi, mən Amerika nümayəndələrinə dəfələrlə deyirdim ki, siz Ukraynanın ərazi bütövlüyünü ikiəlli dəstəkləyirsiniz, silahlar verirsiniz, milyardlarla pul verirsiniz. Biz öz ərazi bütövlüyümüzü bərpa etmişik, niyə siz bizi cəzalandırmaq istəyirsiniz? Buna cavab verin. Cavab da bəllidir, bu, ikili standartlardır. Eyni zamanda, hesab edirəm, Bayden administrasiyasının səhvlərindən biri də o idi ki, Amerikaya olan inamı böyük dərəcədə sarsıtdı, özü öz əməlləri ilə" [1].

Hazırda ABŞ-da D.Tramp hökumətinin Cənubi Qafqaz siyasətində Azərbaycana münasibətin müsbət mənada dəyişdiyini müşahidə etməkdəyik. Bunu Azərbaycan Prezidenti İ.Əliyev 2025-ci il yanvarın 22-də Davosda Ağ evin müraciəti əsasında ABŞ-nin Xristian Liderlər Konqresinin rəhbəri Conni Mur ilə görüşündə də Azərbaycan-ABŞ əlaqələrinin Tramp dönəmində müsbət perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdı. Dövlət başçısı bildirmişdi ki, Bayden-Blinken administrasiyası dövründə ABŞ tərəfindən Azərbaycana qarşı qərəzli münasibət göstərilməsi nəticəsində ikitərəfli əlaqələr böhrana sürüklənmişdi. 907-ci düzəlişin yenidən bərpası da məhz elə Bayden-Blinken administrasiyası tərəfindən reallaşdırılmışdı [12].

Azərbaycan hazırda təkcə bölgə üçün deyil, dünya üçün vacib aktora çevrilməkdədir. Ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki rolu, yaşıl enerji sahəsindəki potensialı, nəqliyyat-logistik imkanları, qlobal təhlükəsizlik problemlərinə ədalətli mövqe sərgiləməsi, dünyada sülhyaratma missiyası ilə çıxış etməsi və etibarlı tərəfdaş imicini qazanması ölkəmizə marağı daha da artırır. Fikrimizcə, bütün bu məqamlar ABŞ-Azərbaycan münasibətlərinin yeni dinamika almasında və inkişafında müsbət rol oynayacaqdır.

## 6.Nəticə

Postsovet məkanının ən mühüm və strateji bölgələrindən biri olan Cənubi Qafqaz son otuz il ərzində böyük güclərin maraqlarının toqquşduğu geosiyasi meydan olaraq formalaşmışdır. SSRİ-nin dağılmasından sonra regionda yaranan siyasi boşluq ABŞ, Rusiya, İran və Türkiyə kimi aktorların fəallaşmasına səbəb olmuş, bu da Cənubi Qafqazı həm siyasi, həm də informasiya müharibələrinin mərkəzinə çevirmişdir. ABŞ-ın regiondakı siyasəti formal olaraq demokratiya, insan hüquqları və təhlükəsizlik prinsipləri üzərində qurulsa da, əslində onun əsas məqsədi Rusiyanın və İranın təsir imkanlarını məhdudlaşdırmaq, Xəzər hövzəsi və Mərkəzi Asiya enerji resursları üzərində nəzarət əldə etmək olmuşdur.

Azərbaycanın beynəlxalq arenada müstəqil və milli maraqlara əsaslanan siyasət yürütməsi Vaşinqtonun planları ilə tam uyğun gəlmədiyindən, ölkəmiz çox vaxt Qərbin informasiya təzyiqlərinə və ikili standartlarına məruz

qalmışdır. ABŞ-ın regionda Ermənistanı “demokratiya tərəfdaşı” kimi təqdim etməsi və uzun illər boyu separatçı rejimə birbaşa və dolayı yollarla dəstək verməsi bu siyasətin qeyri-səmimi mahiyyətini bir daha ortaya qoyur.

Bununla belə, Azərbaycan 2020-ci il Vətən müharibəsində əldə etdiyi qələbə ilə regionun siyasi reallıqlarını dəyişmiş, öz ərazi bütövlüyünü bərpa etməklə beynəlxalq hüququn ədalətli tətbiqinin mümkünlüyünü sübut etmişdir. Bu proses Qərbin, xüsusilə ABŞ-ın Cənubi Qafqaz siyasətinə yenidən baxmasını zəruri etmişdir.

Hazırda regionda yaranmış yeni geosiyasi vəziyyət Azərbaycanı təkcə regional deyil, həm də qlobal səviyyədə vacib aktora çevirmişdir. Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu, yaşıl enerji potensialı, nəqliyyat-logistika imkanları və qlobal sülh proseslərində etibarlı tərəfdaş imici onun beynəlxalq nüfuzunu artırmaqdadır.

Nəticə etibarilə, ABŞ-ın Cənubi Qafqaz siyasəti tarixi boyunca dəyişkən və maraq yönümlü olmuş, lakin Azərbaycan öz milli maraqlarına sadiq qalaraq regionda sabitliyin, inkişafın və ədalətin əsas dayaqlarından birinə çevrilmişdir. Gələcəkdə ABŞ-Azərbaycan münasibətlərinin qarşılıqlı hörmət, bərabərlik və reallıq prinsipləri üzərində qurulması regionun təhlükəsizliyinə və rifahına mühüm töhfə verə bilər.

## 7.ƏDƏBİYYAT

**1.** ABŞ–Azərbaycan münasibətləri: Tramp dövründən müsbət gözləntilər. (t.y.). *525.az.* Alınıb: https://525.az/news/285822-abs-azerbaycan-munasibetleri-tramp-dovrunden-musbet-gozlentiler

**2.** ABŞ Cənubi Qafqaza “Fəlakətlərə Cavab Yardım Qrupu”nu göndərir. (t.y.). *Amerikanın səsi.* Alınıb: https://www.amerikaninsesi.org/a/united-states-activates-a-disaster-assistance-response-team-to-respond-to-humanitarian-needs-in-the-south-caucasus/7289018.html

**3.** ABŞ Cənubi Qafqazda yeni poliqon yaratmaq niyyətindədir. (2023, 17 sentyabr). *Newscenter.az.* Alınıb: https://newscenter.az/2023/09/17/abs-cenubi-qafqazda-yeni-poliqon-yaratmaq-niyyetindedir.html

**4.** ABŞ Cənubi Qafqazdan geri çəkilib. (2021, 3 oktyabr). *Modern.az.* Alınıb: https://modern.az/az/news/314619

**5.** ABŞ-ın Azərbaycandakı səfiri və USAİD-in Bakıdakı nümayəndəliyinin yeni rəhbəri Dövlət Qaçqın Komitəsində olublar. (2015, 17 sentyabr). *Respublika qəzeti.*

**6.** ABŞ-ın Cənubi Qafqaz siyasətinə yenidən baxmağın vaxtıdır. (2025, 15 may). *Modern.az.* Alınıb: https://modern.az/analitika/517716/absh-in-cenubi-qafqaz-siyasetine-yeniden-baxmaghin-vaxtidir

**7.** Azərbaycan sülhməramlıları: qlobal təhlükəsizliyə sadiqlik örnəyi. (2021, 29 avqust). *Xalq qəzeti.*

**8.** Dağlıq Qarabağ probleminə ABŞ-ın münasibəti. (2014, 8 dekabr). *Respublika qəzeti.*

**9.** Həbibbəyli, Ə. (2014, 31 may). ABŞ-ın Cənubi Qafqazda prioritetləri. *Yeni Azərbaycan qəzeti.*

**10.** Məmmədov, Q. (1992, 16 aprel). Dünyanın nəzərlərinin Qafqaza yönəlməsi regionu gərgin mübarizə meydanına çevirəcəkdir. *Ayna qəzeti.*

**11.** Aslanov, N. (t.y.). "ABŞ-ın destruktiv Cənubi Qafqaz siyasəti bu ölkənin regional proseslərdən tam təcridinə səbəb ola bilər." *Aia.az.* Alınıb: https://aia.az/78498-novruzeli-aslanov-abs-in-destruktiv-cenubi-qafqaz-siyaseti-bu-olkenin-regional-proseslerden-tam-tecridine-sebeb-ola-biler.html

**12.** Prezident İlham Əliyev Davosda ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri ilə görüşüb. (2025, 22 yanvar). *Naxçıvan Xəbərləri.* Alınıb: https://www.naxcivanxeberleri.az/bloq/prezident-ilham-eliyev-davosda-abs-nin-xristian-liderler-konqresinin-rehberi-ile-gorusub-60973

**13.** Vaşinqton Cənubi Qafqazda Rusiyanı sıxışdıra biləcəkmi. (t.y.). *Yenixeber.org.* Alınıb: https://yenixeber.org/siyaset/123597-vasinqton-cenubi-qafqazda-rusiyani-sixisdira-bilecekmi.html

**14.** Эйвазов, Дж. (2004). *Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики* (с.237). Баку: Нурлан.

## REFERENCES

**1.** ABS–Azerbaijan relations: Positive expectations since Trump era. (n.d.). *525.az.* Retrieved from https://525.az/news/285822-abs-azerbaycan-munasibetleri-tramp-dovrunden-musbet-gozlentiler (in Azerbaijani)

**2.** The United States sends a "Disaster Response Team" to the South Caucasus. (n.d.). *Voice of America.* Retrieved from https://www.amerikaninsesi.org/a/united-states-activates-a-disaster-assistance-response-team-to-respond-to-humanitarian-needs-in-the-south-caucasus/7289018.html (in Azerbaijani)

**3.** The United States intends to establish a new testing ground in the South Caucasus. (2023, September 17). *Newscenter.az.* Retrieved from https://newscenter.az/2023/09/17/abs-cenubi-qafqazda-yeni-poliqon-yaratmaq-niyyetindedir.html (in Azerbaijani)

**4.** The United States has withdrawn from the South Caucasus. (2021, October 3). *Modern.az.* Retrieved from https://modern.az/az/news/314619 (in Azerbaijani)

**5.** The U.S. ambassador to Azerbaijan and the new head of USAID's Baku office visited the State Committee for Refugees. (2015, September 17). *Respublika Newspaper.* (in Azerbaijani)

6. It is time to reconsider the U.S. policy in the South Caucasus. (2025, May 15). *Modern.az.* Retrieved from https://modern.az/analitika/517716/absh-in-cenubi-qafqaz-siyasetine-yeniden-baxmaghin-vaxtidir (in Azerbaijani)
7. Azerbaijani peacekeepers: An example of commitment to global security. (2021, August 29). *Xalq Newspaper.* (in Azerbaijani)
8. The U.S. position on the Nagorno-Karabakh issue. (2014, December 8). *Respublika Newspaper.* (in Azerbaijani)
9. Habibbeyli, A. (2014, May 31). The U.S. priorities in the South Caucasus. *Yeni Azerbaijan Newspaper.* (in Azerbaijani)
10. Mammadov, G. (1992, April 16). The world’s attention turning to the Caucasus will turn the region into a field of intense struggle. *Ayna Newspaper.* (in Azerbaijani)
11. Aslanov, N. (n.d.). “The destructive policy of the U.S. in the South Caucasus may lead to the country’s complete isolation from regional processes.” *Aia.az.* Retrieved from https://aia.az/78498-novruzeli-aslanov-abs-in-destruktiv-cenubi-qafqaz-siyaseti-bu-olkenin-regional-proseslerden-tam-tecridine-sebeb-ola-biler.html (in Azerbaijani)
12. President Ilham Aliyev met with the head of the U.S. Christian Leaders Congress in Davos. (2025, January 22). *Nakhchivan News.* Retrieved from https://www.naxcivanxeberleri.az/bloq/prezident-ilham-eliyev-davosda-abs-nin-xristian-liderler-konqresinin-rehberi-ile-gorusub-60973 (in Azerbaijani)
13. Can Washington push Russia out of the South Caucasus? (n.d.). *Yenixeber.org.* Retrieved from https://yenixeber.org/siyaset/123597-vasinqton-cenubi-qafqazda-rusiyani-sixisdira-bilecekmi.html (in Azerbaijani)
14. Eyvazov, J. (2004). *Security of the Caucasus and the stability of Azerbaijan’s development* (p.237). Baku: Nurlan. (in Russian)